Şabran bir vaxt Şirvanşahların bir çox cəhətdən xüsusi əhəmiyyət kəsb edən yaşayış məntəqələrindən biri olmuşdur. Böyük karvan yolunun üstündə yerləşdiyinə görə, Şabrana strateji bir ərazi kimi baxılırdı. Bu şəhərdə sənətkarlıq inkişaf eləmiş, ticarət əlaqələri genişlənmişdi. Karvanların burada dayanması və istirahəti üçün hər bir şərait vardı. Bu da istər-istəməz şəhər həyatında iqtisadi imkanların yüksəlişinə səbəb olurdu. Və həm də bir qədər təəssüflə desək, Şabran məşhur həbsxanası ilə də yaddaşımızdan boylanır.



Ağalar Mirzə mükəmməl şair idi. Mən onun yanında şeirlərimi oxumaqdan çəkinmirdim. Çünki onun səmimiyyətinə inanırdım. Və bu səmimiyyəti Ağalar Mirzənin şeirlərində də bu gün hiss etmək, duymaq mənə çox xoşdur. Əlbəttə, bu gün öz dostum haqqında kimsəyə məlum olmayan ağrılarla danışıramsa, bu, mənim öz yükümdür. Amma hər halda «Şabranın söz inciləri» sırasında Ağalar Mirzənin də şeirlərini görmək məni çox sevindirir. Açığı, Ağalar Mirzənin poetik aləmi, ruh dünyası o qədər zəngindir ki, onun şeirlərinə müraciət edəndə haradan, necə başlamaq çətin olur. Mənim üçün bu, dünən də çətin idi, bu gün də çətindir. Hər halda heç olmasa, bir şeiri Ağalar Mirzənin xatirəsinə ehtiram kimi oxucuların diqqətinə bütöv çardırmaq olar:

Çıxdın qabağıma durna köçütək,
Payızdı... Üşüyür ağaclar, güllər.
Ürəyin açıqdır ovuc içitək,
Qorxuram üstünə yağış tökülər.

Bütün şəhər gedir, ürəkləri yaz,
Bir gəlin beşikdə daşıyır canı.
Sənin bir naqəfil köçündən olmaz,
Gözündən tökülür ulduz karvanı.

İstəsək də, istəməsək də sözün gücü bizdən tələb edir ki, burada poetik mətni dayandıraq, bədii təsvir və ifadənin mətnə gətirdiyi yükə ötəri də olsa nəzər yetirək: «Bir gəlin beşikdə daşıyır canı» - bu misranın mahiyyəti, açımınacan gedəsi olsaq, bir kitablıqdır. Həmin o təhlükəsiz, dünyanın qayğılarından ötən bir aləmdə olan beşiyin təsviri az qala, Füzuliyəcən gedir.

# “ŞABRANIN SÖZ İNCİLƏRİ”

Əfzələddin Xaqaninin 6 ay Şabran həbsxanasında saxlanılması və burada “Həbsiyyə” adlı şeirlər silsiləsini yaratması da Şabranın mədəniyyət tariximizdəki yerini müəyyənləşdirən faktlardandır.

Sonrakı əsrlərdə Şabran tənəzzülə uğradı, yaşayış məskəni kimi sıradan çıxdı, amma unudulmadı. İndi də tarixi Şabranın ərazisinə turistlər gəlir, qədim şəhərin XII əsrdəki həyatı haqqında məlumat alır, Azərbaycan tarixinin ən maraqlı səhifələri ilə tanış olurlar.

Şabran rayonunda mənəvi mühit zəngin tarixi keçmiş üzərində yaşarı mədəni tarixi ənənələrdən qaynaqlanaraq inkişaf edir. Burada sözü-sənəti ilə sevilən şairlər yaşayıb-yaradırlar. “Şabranın söz inciləri” şeirlər toplusuna ədəbi fəallığı ilə fərqlənən bir neçə şairin - Ağalar Mirzənin, Məzahir Zeynalın, Bayram Novruzun, Təvəkkül Kərimin, Aybəniz Əliyarın və Mehdi Novruzun şeirləri toplanıb. Bu şairlər həm yaş, həyat baxımından zamana dolmuş çağlarındadır, həm də yaradıcılıq baxımından nəinki yaşadıqları ərazidə, eləcə də bütövlükdə Azərbaycan mənəvi mühitində tanınır, təqdir olunurlar. Əlbəttə, onları fərdi üslubları fərqləndirir, hər hansı mövzuya yanaşma tərzi ilə bir-birindən seçilirlər. Ancaq, hər bir şairin öz nəfəsi var və hər biri də öz istedadına görə könüllərə xüsusi ovqat bəxş edən poetik örnəkləri ilə tanınır.

Azərbaycan ədəbiyyatının və folklorşünaslığının, eyni zamanda telepublisistikanın və poeziyanın danılmaz bir siması da var. Bu, Ağalar Mirzədir.

İllər öncə Ağalar Mirzə ilə yaradıcılıq əlaqələrimiz çox qızğın idi. Azərbaycan televiziyasında «Karvan» verilişinə məni dəfələrlə dəvət etmişdi. Hətta aramızdakı isti münasibət ömünün son günlərində belə onu xüsusi bir zərurətlə mənim yanıma çəkib gətirmişdi. Bu təfərrüatı danışmaq istəmirəm. Ancaq həmin görüşdə də biz yenə ədəbiyyat haqqında, yenə onun poetik yaradıcılığı haqqında sözümüzü, söhbətimizi mövzu elədik.

Ağalar Mirzə papağını günə havayı yandıran ziyalı olmadı. Onun telepublisistik fəaliyyəti özü bir araşdırma mövzusudur. Ancaq Ağalar Mirzə folklor tədqiqatları ilə elə ardıcıl, elə mükəmməl məşğul oldu ki, az vaxt içərisində elmin kifayət qədər yuxarı mərtəbəsinə qədər yüksəldi.

Ağalar Mirzə bir şair kimi, bir ictimai xadim kimi poeziyasında da insanlığın qarşısına çıxan suallara cavab verməyə çalışırdı:

O vaxt bir ömürdü sənli hər anım,
İndi soruşmuram günah kimindir.
Sənin yaddaşında mənim ünvanım
Qadağan olunmuş silah kimidir.

Özgələr üzünə gülməmişəm mən,
Keçib gözlərindən yolum həmişə.
Özümlə barışa bilməmişəm mən,
Təkcə yollarımı dəyişdirmişəm.

Bəlkə, gözləridən düşüb qalmışam,
Taleyim - dalğalar qoynunda gəmi.
Mən səni həmişə arzulamışam,
Yaza bilmədiyim şeirlər kimi.

Nə gözəldir. Həqiqətən hər bir yazan elə düşünür ki, onun ürəyinin başında bir tikan var və o tikanı o, yazabiləcəyi ən mükəmməl sözü ilə çıxaracaq. Çünki, bu tikanı çıxarmaq onun son arzusudur, son istəyidir. Bundan o yanası yoxdur. Ağalar Mirzədə bu istək - yəni idealı arzulamaq, idealı istəmək, idealı özündə görmək o qədər güclü idi ki, o, hətta həmin istəyi yaza bilmədiyi şeirlərinə bərabər tuturdu. Demək, həmin şeirlər - yaza bilmədiyi şeirlər elə onun idealına bərabər idi.

Ağalar Mirzənin istənilən digər bir şeirini də burada misal gətirmək olardı. Çünki onun hər bir şeirində həyat var, hər bir misrasında, bəndində insan mənəviyyatı var, insanın təbiəti var. İnsan isə o yerdə görünür ki, orada onu görmək istəyən var. «Çıxdın qabağıma», «Qızların gözəl vaxtı», «Gecə zəngləri», «Şairlər», «Məni ölüm tək istə», «Allahın əmridir», «Çoxalır» və s. şeirlər Ağalar Mirzənin poetik dünyası haqqında kifayət qədər dolğun, aydın təsəvvür yaradır.

Ağalar Mirzə Azərbaycanın Əməkdar İncəsənət xadimi idi. O, kifayət qədər ədəbi-mənəvi mühitdə təsirli və nüfuzlu söz sahibi kimi tanınırdı. Və bu tanınmağı ilə kifayət qədər təsiredici imkanlara malik idi.

*(Davamı var)*

Kredo 2020.- 2 yanvar.- S.12.